# O, çoxlarına nümunə idi

...2016-cı il aprelin 1-dən 2-nə keçən gecə atəşkəsi pozan bədnam qonşumuz cəbhənin Ağdərə-Tərtər-Ağdam və Xocavənd-Füzuli istiqamətlərində fəallaşaraq, ayrı-ayrı ərazilərdə ciddi təxribatlar törətməklə mövqelərimizə qarşı hücuma keçdilər. Ermənilər bu vaxtı təsadüfən seçməmişdilər; həmin dönəmdə ABŞ-də beynəlxalq sammitdə iştirak edən Azərbaycan Prezidenti hələ vətənə qayıtmamışdı.

Təhlükəli vəziyyət barədə dövlətimizin başçısına təcili məruzə edildi, daim döyüşə hazır Silahlı Qüvvələrimiz nəinki xain yağıların təcavüzkar planlarını pozdu, hətta sürətli əks-hücumla Talış, Seysulan, Cocuq Mərcanlı, Odundağ və digər strateji mövqelərə nəzarəti ələ aldı. Çaşqın durumda qalan qorxaq düşmən döyüş meydanında silahlarını, texnikasını, hərbi sursatını, meyitlərini atıb qaçdı. Və beləliklə, dördgünlük savaş qəhrəman ordumuzun tam üstünlüyü və qələbəsi ilə başa çatdı. Əslində, bu, müharibənin yekunu deyildi, Qarabağ uğrunda haqq mübarizəmizdə bir döyüş, əməliyyat idi.

...2016-cı ildə həmişəkindən fərqli doğuldu aprel günəşi... Elə buludların arasından boylanmışdı ki, torpağı igid oğulların qanına bələnmiş, səmanı şəhid ruhları ilə bəzənmiş gördu. Neçə-neçə valideyn yatağından hövlnak qalxdı o gecə. Şamaxı rayonunda yaşayan Kaçayevlər ailəsi də çox narahat, dirigözlü açdılar səhəri. Əminə xanımın halı pisləşdi, qonum-qonşu başına yığıldı, həkim çağırmaq istədilər, razılaşmadı. Təkcə ciyərparəsinin - yeganə oğlunun adını çəkdi, Samiri soruşdu. Ona ürəkdirək verdilər: "Ayağından yüngül yaralanıb, Bakıya - xəstəxanaya gətirirlər, gedib sarılarsan boynuna..."

...1994-cü il martın 5-də Çuxuryurdda, İzəddin kişinin ocağında bir oğlan uşağı dünyaya göz açdı, adını Samir qoydular. Böyüdükcə ailənin, məhəllənin, məktəbin sevimlisinə çevrildi. Dostları, yoldaşları arasında tərbiyəsi, istedadı, işgüzarlığı, fərqli düşüncələri-lə seçilirdi. İllər keçdikcə heykəltaraş olmaq istəyi qəlbinin dərinliklərində möhkəmləndi. Azərbaycan Dövlət Rəssamlıq Akademiyasına qəbul olundu, bakalavr pilləsini əla qiymətlərlə başa vurdu. İmtahan verib magistraturada təhsilini davam etdirmək şansı qazandı. Tələbəlik illərində də müxtəlif tədbirlərdə, sərgilərdə, müsabiqələrdə maraqlı əsərləri ilə iştirak etdi. 2014-cü ildə keçirilən "AZNAR" , "Milli dəyərlərimiz" sərgilərinə qatıldı, eyni zamanda ölkənin hüdudlarından kənarda baş tutan "Hamı birlikdə" adlı sərgidə, Heydər Əliyev Fondunun təşkilatçılığı ilə "Bakı 2015" ilk Avropa Oyunları, Fransa, Türkiyə, İsveçrə sərgilərində aktiv iştirakı ilə yadda qaldı.



Xalq rəssamı Ömər Eldarov gənc heykəltaraşı belə xatırlayır: "Samir gözəl diplom işi hazırladı. Əla qiymət aldı. Akademiyamızın ən nümunəvi tələbələrindən idi. Dost kimi də, tələbə kimi də, gənc kimi də, kollektiv üzvü kimi də nümunə idi. Biz Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının bütün professor və müəllim heyəti, tələbələrlə birlikdə ağır da olsa, gənc və istedadlı tələbəmizin dəfnində iştirak etməyə getdik. Ailəsinə minnətdarlıq bildirdik. Dedik ki, belə oğul böyütdüklərinə, tərbiyə etdiklərinə görə sağ olsunlar. Heyif ki... vaxtsız həlak oldu... müharibə, müharibədir. O, məharətli heykəltaraş idi. İşlərində fərqlilik və mükəmməllik vardı. İnanmaq olmur ki, Samir Kaçayev belə uzaq dağ kəndində doğulub böyümüşdü. Onunla münasibətdə belə rəy yaranırdı ki, sanki mərkəzdən gəlib. Dərsi və sənəti dərinliklərinə qədər mənimsəməyə çalışırdı. Nəzəri və praktiki cəhətdən də kamil və mükəmməl idi. Onun əl işləri çox yüksək qiymətləndirilirdi. Onun simasında Azərbaycan böyük və istedadlı bir heykəltaraşını itirdi. Mən bütün cavanlara cansağlığı və hərbdə qazanılmış xoşbəxtlik arzulayıram. Qoy onlar heç vaxt gülləyə, mərmiyə tuş gəlməsinlər!"

Müəllimləri Sevil Süleymanova, Afa Aslanova, tələbə yoldaşları Rahib Qarayev, Nigar Məmmədova, Zamin Rzayev şəhid Samir haqqında xatirələrini bölüşdülər: "Müəllimlərlə, tələbə yoldaşları ilə xoş ünsiyyət qurmuşdu. Yoxluğuna inana bilmirik, daim yeri görünür. Ailəsi ilə mütəmadi əlaqə saxlayırıq, dərdlərini yüngülləşdirməyə, təsəlli verməyə çalışırıq. Bacısı ilə çox oxşayırlar bir-birinə, Səbinəni görəndə elə bil, Samiri görürük..."

...Fransanın dahi heykəltaraşı Radenin abidəsi tələbə Samir Kaçayevin əla qiymətləndirilən diplom işidir; həmin əsərlə bakalavr pilləsini uğurla başa vurub, magistraturada oxumaq hüququ qazanmışdı. Lakin çox keçmədən 22 yaşlı gənc elə bir "diplom işi"nə imza atdı ki, nəinki bu məkanda və zamanda, bütün dünyada əbədi səadətin təminatçısına çevrildi.

O, ömrün baharında ən ali zirvəyə - şəhidlik məqamına yüksəldi; cismini canından da artıq sevdiyi Vətənin torpağına, ruhunu isə səmasına tapşırdı... Həmişə ucalıqlarda, Samir!

***Q.MƏMMƏDOV***

Azərbaycan.- 2024.- 9 aprel, № 73.- S.8.